AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

VƏTƏNDAŞLARIN ƏMƏK HÜQUQLARINI MÜDAFİƏ LİQASI

# CƏZA ÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ HƏSSAS QRUPA DAXIL OLAN MƏHKUMLARIN HÜQUQLARININ TƏMİN OLUNMASINA DAİR

## Qanunvericilik və onun tətbiqi praktikasının monitorinqinə dair

# H E S A B A T

√ Qanunvericiliyin təhlili
√ Qanunvericiliyin tətbiqi praktikası
√ Siyasətin formalaşmasına dair tövsiyələr

# R E P O R T

# ON THE LEGISLATION ON THE PROVISION OF THE RIGHTS OF VULNERABLE PRISONERS AT PENITENTIARY INSTITUTIONS AND MONITORING OF THE PRACTICE OF ITS APPLICATION

√ Analysis of the legislation
√ Practice of application of the legislation
√ Recommendations of the formulation of the policy

AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

VƏTƏNDAŞLARIN ƏMƏK HÜQUQLARINI MÜDAFİƏ LİQASI

# CƏZA ÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ HƏSSAS QRUPA DAXIL OLAN MƏHKUMLARIN HÜQUQLARININ TƏMİN OLUNMASINA DAİR

## Qanunvericilik və onun tətbiqi praktikasının monitorinqinə dair

## H E S A B A T

**√ Qanunvericiliyin təhlili**
**√ Qanunvericiliyin tətbiqi praktikası**
**√ Siyasətin formalaşmasına dair tövsiyələr**

Bakı-2016

# MÜNDƏRİCAT

**İCMAL** ........................................................................................ 3

**I. QANUNVERİCİLİK** ..................................................................... 6
1.1.İşgəncə və digər pis rəftar hallarında müdafiə ....................................... 6
1.2.Əlavə təminatlar........................................................................ 7
1.3.Əməyə cəlb edilmə zamanı könüllülük .................................................. 9
1.4. Digər təminatlar ....................................................................... 10
1.5. Sosial adaptasiya ...................................................................... 10
1.6.Hərəkət imkanlarının təmin olunması sahəsində tələblər ..................... 11

**II. MONİTORİNQ** ........................................................................ 13
2.1 Metodologiya ........................................................................... 13
2.2. Sorğu vərəqinə daxil edilmiş suallar üzrə
müşahidələr və onların nəticələri ..................................................... 14
2.2.1.Müəssisənin hərəkət məhdudiyyəti olan əlilliyi olan şəxslər
üçün müəssərliyi, o cümlədən əlilliyi olan şəxslərin yataq,
asudə vaxt, qidalanma yerlərinə gedib gəlmə imkanları ........................... 14
2.2.2.Hərəkət, görmə və eşitmə qabiliyyəti məhdud olan
əlilliyi olan şəxslərin müvafiq vasitələrlə təchiz olunma vəziyyəti ........... 16
2.2.3 Tibbə çıxış imkanları .................................................................. 17
2.2.4. Təhsil və reablitasiya imkanları...................................................... 18
2.2.5. Cəzaçəkmə müəssisələrində bədən tərbiyəsi və idman ................. 19
2.2.6. İbadət imkanları ......................................................................... 19
2.2.7. Həssas qrupa daxil olan məhkumların pensiya təminatı,
əlillik dərəcəsinin alınması ilə bağlı vəziyyət ......................................... 20

2.2.8. Həssas qruplara daxil olan məhkumların digər problemləri
(əməyə çıxış, digər sosial problemlər) üzrə müşahidələr ........................... 21
2.2.9. Xarici aləmlə əlaqə ..................................................................... 23
2.2.10. Əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların
kommunikasiya vasitələrindən istifadə imkanları ..................................... 24

**III. HƏSSAS QRUPLARA DAXİL OLAN MƏHKUMLARA HÜQUQİ YARDIMLARIN GÖSTƏRİLMƏSİ**
3.1. Məhkumların hüquqi və psixoloji yardım almaq hüququ .................... 25
3.2.Həssas qruplara daxil olan məhkumlara
hüquqi yardımların göstərilməsi ............................................................ 25

**TÖVSİYƏLƏR** .............................................................................. 27

**ƏLAVƏLƏR**
Əlavə 1. Müşahidə-qeyd vərəqi ............................................................. 29

## İCMAL

Azərbaycan Respublikasının Konstitusiyasının 25.3 maddəsinə görə "*Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".*

Azərbaycan Respublikasının Konstitusiyası və digər normativ-hüquqi aktları hər hansı əlamətə gösə ayrı-seçkilik hallarını qadağan edir və müxtəlif təminatsız və ya həssas qruplara daxil olan insanlara imtiyaz və əlavə hüquqlar müəyyən edir. Bu halda əsas məqsəd insanların bərabərlik hüququnun təmin olunmasıdır.

Ayrı-seçkiliyə yol verilməməsi və bərabərlik hüququnun təmin olunması insanın harada və hansı vəziyyətdə olmasından aslı olmayaraq tətbiq edilməlidir. Bu baxımdan qanunvericilikdə, cəza alaraq azadlıqdan məhrum edilimiş şəxslərin də insan hüquqlarına hörmət və onların ləyaqətinin qorunmasına əsaslanır .

Cəzaların İcrası Məcəlləsində göstərilir ki, " *Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, müvafiq qanunlarına və beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq məhkumlarla rəftarda işgəncə və ya digər qəddar, qeyri-insani hərəkətlərə və yaxud ləyaqətin alçaldılmasına yol verilməməsinə əsaslanır*[1].

Cəzaçəkmə müəssisələrində cəza çəkən və həssas qruplara daxil olan şəxslərin hüquqlarının təmin olunması həm ölkə qanunvericiliyi, həm də ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalarla müəyyən olunur.

Cəza çəkən məhkumlar arasında həssas qrupa aid edilən əlilliyi olan şəxslər də vardır. Azərbaycan Respublikasının tərəfdar çıxdığı "Əlilliyi olan şəxslərin hüquqlarına dair Konvensiya" da

[1]http://e-qanun.gov.az/code/15

əlilliyi olan şəxslərlə bağlı iştirakçı dövlətlər üçün öhdəliklər müəyyən etmişdir.

Konvensiyada göstərilir ki, "*İştirakçı dövlətlər əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol vermədən bütün əlilliyi olan şəxslərin bütün insan hüquqlarının və əsas azadlıqlarının tam realizəsini təmin etməyi və həyata keçirməyi öhdələrinə götürürlər*".

BMT Baş Məclisi 13 dekabr 2006-cı il tarixində Əlilliyi olan şəxslərin hüquqlarına dair Konvensiya qəbul etmiş və onu ratifikasiya üçün açıq elan etmişdir.

Azərbaycan Respublikası Konvensiyanı 28 yanvar 2009-cu il tarixində ratifikasiya etmişdir.

Konvensiyada əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının təmin olunması, onların başqaları ilə birgə cəmiyyətə inteqrasiya olunması, ləyaqətli həyat, ləyaqətli məşğulluqlarının təmin olunmasına yönələn müddəalar daxil edilmişdir. Konvensiyanı ratifikasiya edən dövlətlər öz üzərlərinə əlilliyi olan insanların hüquq və azadlıqlarının təmin olunmasına və onlara münasibətdə mövcud olan açıq və gizli ayrı-seçkilik hallarının aradan qaldırılmasına yönələn tədbirləri həyata keçirməyi öhdəlik olaraq götürürlər.

**Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə Azərbaycanın ilk hesabatı üzrə 9 may 2014-cü il tarixində qəbul etdiyi yekun tövsiyələrdə** Azərbaycanın azadlıqdan məhrumetmə yerləri ilə bağlı xüsusi tövsiyəsi də vardır. Komitə qeyd etmişdir ki, "Komitə hesabatda müəyyən azadlıqdan məhrumetmə yerlərində əlilliyi olan insanların pis həyat şəraiti ilə bağlı hesabatlardan narahatdır[2]".

Komitə Azərbaycan dövlətinə bununla bağlı tövsiyə vermişdir: "**Komitə iştirakçı Dövləti bütün azadlıqdan məhrumetmə yerlərində, xüsusilə həbsxanalarda Konvensiyaya uyğun əlverişli və insani yaşayış şəraitini təmin etməyə çağırır. Bununla əlaqədar olaraq, iştirakçı Dövlət Ombudsman Aparatı və Milli Preventiv Mexanizm kimi nəzarət orqanlarının kifayət qədər resurslara və iştirakçı Dövlətdəki**

[2]http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRPD%2fC%2fAZE%2fCO%2f1&Lang=en

**bütün azadlıqdan məhrumetmə yerlərinə maneəsiz giriş imkanına malik olmasını təmin etməlidir[3]".**

Əslində tövsiyədən görünür ki, BMT Komitəsi ölkənin azadlıqdan məhrumetmə yerləri ilə bağlı ciddi məlumatlara malik deyildir. Belə ki, tövsiyədə adı çəkilən təsisatların bütün azadlıqdan məhrumetmə yerlərinə tam və maneəsiz başçəkmə hüququ vardır və bu hüququ hər hansı maneə olmadan reallaşdırılır. Eyni zamanda azadlıqdan məhrumetmə yerlərinə maneəsiz başçəkmə hüququ olan digər qurumlar, o cümlədən fəaliyyətinin effektiv olması beynəlxlaq təşkilatlar, o cümlədən BMT-nin İşgəncələr Əleyhinə Komitəsi, İnsan Hüquqları Komitəsi tərəfindən müsbət qiymətləndirilən "Ədliyyə Naziri yanında İctimai Komitə" də vardır. Komitənin tərkibi ixtisaslaşmış insan hüquqlarını müdafiə edən təşkilatların nümayəndələrindən ibarətdir.

Hazırlanan bu hesabat Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəzaçəkmə müəssisələrində aparılan başçəkmələrin və müşahidələrin nəticəsi olaraq hazırlanmışdır. Müşahidələrin aparılması və hüquqi yardımların göstərilməsinə İctimai Komitənin üzvləri cəlb olunmuşdur.

[3]http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/SessionDetails1.aspx?SessionID=909&Lang=en

# I. QANUNVERİCİLİK

Penitensiar Xidmətin Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında əlilliyi olan, ahıl və xəstə olan şəxslər də vardır. Cəzaçəkmə müəssisələrində qadınlar və yaşı 18-dən aşağı olan həddi-büluğa çatmamış uşaqlar ayrı saxlanılır. Cəzaların İcrası Məcəlləsində və digər aidiyyatı normativ-hüquqi aktlarda belə məhkumlar üçün müəyyən üstün hüquqlar və imtiyazlar nəzərdə tutulur. Çəzaların İcrası Məcəlləsində göstərilir ki, "*Cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqları təmin olunur. Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla bilər*"[4].

## 1.1. İşgəncə və digər pis rəftar hallarında müdafiə

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsi işgəncə və ləyaqəti alçaldan digər davranış və cəzalardan müdafiə edir. Konstitusiyanın 46-cı maddəsinin 3-cü hissəsində göstərilir ki, "*Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz*"[5].

Cəzaların İcrası Məcəlləsində göstərilir ki, "*Cəzaların icrası zamanı məhkumlara dair Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual məcəllələri, bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşdırmalar və istisnalarla onların Azərbaycan Respublikası vətəndaşlarına mənsub olan hüquq və azadlıqlarına təminat verilir. Məhkumlar qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, hüquq və azadlıqlardan irəli gələn vəzifələr daşıyırlar*"[6].

Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir sıra beynəlxalq normalarda da bütün şəxslərin, o cümlədən azadlıqdan məhrum etmə yerlərində saxlanlan şəxslərin işgəncə və insan ləyaqətini alçaldan digər davranış və cəzalardan azad olması hüququ əksini tapmışdır.

---

[4]http://e-qanun.gov.az/code/15:*Cəzaların İcrası Məcəlləsi. Maddə 10.1.*

[5]http://meclis.gov.az/?/az/topcontent/2: AR Konstitisiyası.Maddə 46.3.

[6]http://e-qanun.gov.az/code/15: CİM. Maddə 9.2.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda göstərilir ki, *"Heç kim işgəncələrə və ya ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Əsasən də, heç bir şəxs özünün sərbəst razılığı olmadan tibbi və ya elmi təcrubələrə məruz qalmamalıdır"*[7].

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensıyasinın 3-cü maddəsində göstərilir ki, "Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır"[8].

Əlilliyi olan Şəxslərin Hüquqlarına dair BMT Konvensiyasının 15-ci maddəsinin ikinci hissəsində göstərilir ki, *"İştirakçı dövlətlər əlillərin digərləri ilə bərabər səviyyədə işgəncələrə və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəzalara məruz qalmaması üçün bütün səmərəli qanunverici, inzibati, məhkəmə və ya digər tədbirləri görürlər"*[9].

Azərbaycanın tərəfdar çıxdığı digər beynəlxalq razılaşmalar və sənədlərdə də məhkum olunmuş şəxslərin, həmçinin həssas qrupa daxil olan şəxslərin qanunla məhdudlaşdırılan hüquq və azadlıqlarından başqa digər hüquq və azadlıqlarına təminat nəzərdə tutulmuşdur.

Qanunvericilikdə nəzərdə tutulan təminatların icra edilməməsi, məsələn, zəruri hallara tibbə çıxış imkanının olmaması, qidalanma, yaşayış şəraitinin pis olması da pis rəftar və ya ləyaqətin alçaldılması kimi qeyd oluna bilər.

## 1.2. Əlavə təminatlar

Cəzaçəkmə müəssisələrində həssas qruplara aid olan məhkumlar üçün əlavə təminatlar nəzərdə tutulur. Cəzaların İcrası Məcəlləsinin 80.4. maddəsinə əsasən *"Birinci və ikinci qrup əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, hamilə qadınlara, cəzaçəkmə müəssisələrinin nəzdindəki uşaq evlərində uşaqları olan qadınlara, müalicə müəssisələrində və yolxucu xəstəliyə*

---

[7] http://ohchr.org/EN/ProfessionalInterest/Pages/CCPR.aspx: Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt. maddə 7.

[8] http://ohchr.org/EN/ProfessionalInterest/Pages/CCPR.aspx: İnsan hüquqlarinin və əsas azadliqlarin müdafiəsi haqqinda Avropa Konvensiyası. maddə 3

[9] http://ohchr.org/EN/HRBodies/CRPD/Pages/ConventionRightsPersonsWithDisabilities.aspx: Əlilliyi olan Şəxslərin Hüquqlarına dair Konvensiya. Maddə 7.

*tutulmuş şəxslərin saxlanılması və müalicəsi üçün nəzərdə tutulan cəzaçəkmə müəssisələrindəki məhkumlara əlavə olaraq ayda on beş manat miqdarında ərzaq məhsulları və ən zəruri mallar əldə etməyə icazə verilir"*[10].

Maddədə göstərilən kateqoriyaya aid olan məhkumlara Cəzaçəkmə müəssəsində olan ticarət köşkündən zəruri olan ərzaq məhsulları və ya zəruri olan digər mallar əldə etməyə imkan verir. Maddəyə əsasən Penitensiar Xidmətin müalicə müəssələrində (o cümlədən ixtisaslaşmış və yolxucu xəstəliklərin müalicəsi üçün nəzərdə tutulmuş çəzaçəkmə müəssəsində) nəzərdə tutulan məbləğdən daha çox pul xərcləmək üçün hüquqlara malikdirlər.

Cəzaların İcra Məcəlləsinin digər bir maddəsi ilə bəzi kateqoriya məhkumlar üçün
sovqat və banderol alması ilə bağlı əlavə təminat nəzərdə tutulur. Cəzaların İcra Məcəlləsinin 82.2. maddəsinə əsasən "*Ağır xəstə, hamilə və uşaq evlərində uşaqları olan qadın məhkumların, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumların bağlama, sovqat və ya banderol almalarına məhdudiyyət qoyulmur"*[11].

Bununla belə sovqat və ya banderol almaq imkanları olmayan (maddi vəziyyət, yaxın qohumların olmaması və ya onlarla əlaqənin olmaması və s. səbəblərdən), lakin həssas qrupa daxil olan məhkumlar üçün cəzaçəkmə müəssəsi müəyyən təminatlar nəzərdə tutmalıdır. Cəzaların İcrası Məcəlləsinin 91.8.-ci maddəsində nəzərdə tutulur ki, *"müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş **h**amilə və ya üç yaşına çatmamış uşağı olan məhkum qadınlara, yetkinlik yaşına çatmayan, həmçinin xəstə, birinci və ikinci qrup əlilliyi olan məhkumlara yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır və onlar üçün yeməyin xüsusi normaları müəyyən edilir".*

Cəzaçəkmə müəssisələrində və həbsxanalarda məhkumların şəxsi hesabına, bütün tutulmalı

[10]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsinin 80.4. maddəsi
[11]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsinin 82.2. maddəsi

məbləğlərdən asılı olmayaraq onlara hesablanmış aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı *əlli* faizi, (vergi, sosial ödəmə və s.) tutulduqdan sonra qazancın ən azı 50 faizi keçirlilir. Həssas qrupa daxil olan məhkumlar üçün bu halda da əlavə təminat nəzərdə tutulur. Belə ki, "Cəzaların İcrası Məcəlləsinin 99.3. maddəsinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş"*altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumların, birinci və ikinci qrup əlilliyi olan məhkumların, yetkinlik yaşına çatmayanların və ya hamilə, cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların şəxsi hesabına isə aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı altmış faizi keçirilir"*[12].

**1.3. Əməyə cəlb edilmə zamanı könüllülük**

Cəzaların İcrası Məcəlləsinə əsasən "*Hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb etməlidirlər"*[13].

*Avropa Penitensiyar Qaydalarının 26.1. maddəsində göstərilir ki, "Həbs yerlərində əməyə daxili rejimin müsbət elementi kimi baxılmalı və ondan heç vaxt cəza kimi istifadə edilməməlidir*[14].

**Cəzaların İcrası Məcəlləsinin 95.2. maddəsinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş "*a***ltmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlara, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlara, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlara*

[12]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsinin 99.3. maddəsi

[13]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 95.1.

[14]http://www.justice.gov.az/view_hr.php?id=9

*könüllülük əsasında işləməyə icazə verilir. Yetkinlik yaşına çatmayan məhkumlar əmək qanunvericiliyinə uyğun işə cəlb edilirlər"*[15].

## 1.4. Digər təminatlar

Həssas qrupa daxil olan məhkumlar üçün qanunvericiliklə digər təminatlar da nəzərdə tutulur. Cəzaların İcrası Məcəlləsinin 120.5. maddəsində göstərilir ki, *"Məhkum qadınlar, həmçinin birinci və ikinci qrup əlilliyi olan məhkumlar ciddi saxlanma şəraitinə keçirilə bilməzlər"*[16].

**Cəzaçəkmə müəssələrində məhkumlar üçün nəzərdə tutulan ümumi təhsilə cəlb olunmada da belə kateqoriyaya aid olan məhkumlar üçün könüllülük prinsipi tətbiq olunur. Cəzaların İcrası Məcəlləsinin 104.1.**maddəsinə əsasən *"Cəzaçəkmə müəssisələrində məhkumların ümumi təhsili həyata keçirilir. Yaşı qırxdan çox olan məhkumlar, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlar ümumi təhsilə öz arzularına görə cəlb edilirlər"*[17].

## 1.5. Sosial adaptasiya

Cəzaların İcrası Məcəlləsi və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanun cəzasını başa vurmuş məhkumların sosial reablitasiyasını nəzərdə tutan müxtəlif proqram və tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Həmin qanunvericilik aktlarında həssas qruplara daxil olan keçmiş məhkumlar üçün əlavə təminatlar da nəzərdə tutulur. **Cəzaların İcra Məcəlləsinin** 175.3. maddəsinə əsasən*"Birinci və ikinci qrup əlilliyi olan məhkumlar, altmış iki yaşına çatmış məhkum kişilər və əlli yeddi yaşına çatmış məhkum qadınlar öz ərizələri və cəzaçəkmə müəssisəsi müdiriyyətinin təqdimatı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlillər və ya qocalar evinə göndərilirlər"*[18].

---

[15]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 95.2
[16]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 120.5.
[17]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 104.1.
[18]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 175.3.

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanunun 6.1.3. maddəsində göstərilir ki, "*daimi yaşayış sahəsi olmayan şəxsləri bu Qanunla müəyyən olunmuş müddətdə müvəqqəti yaşayış yeri ilə təmin*[19]" edilməlidir.

Qanunun qüvvəyə minməsindən uzun müddət keçməsinə baxmayaraq (31 may 2007-ci il) indiyədək cəzasını başa vurmuş və yaşamaq üçün yeri olmayan şəxslər üçün yataqxanalar tikilməmişdir. Beləliklə, nəinki əlillyi olan keçmiş məhkumların, ümumiyyətlə heç bi keçmiş məhkumun sosial reablitasiya proqramına ciddi şəkildə cəlb edilməsi mümkün deyildir.

Qanunvericiliyə əsasən əlilliyi olan məhkumların **texniki və digər bərpa vasitəsi**tələri ilə təmin olunmaq hüququ vardır.

Əmək Pensiyaları Haqqında Qanuna əsasən əlilliyi olan şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada (*Əlilliyə görə əmək pensiyası əlil və ya sağlamlıq imkanları məhdud sığortaolunana ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir*) pensiya müəyyən edilir.

Cəzaçəkmə müəssisələrində müəssisədən və Penitensiar Xidmətdən asılı olmayan səbəblərdən təqaüd yaşına çatan və ya əlilliyi olan xeyli məhkum pensiya ala bilmirlər.

**1.6. Hərəkət imkanlarının təmin olunması sahəsində tələblər**

2012-ci ilin iyununda qüvvəyə minmiş "Şəhərsalma və Tikinti Məcəlləsi"nin tikinti obyektinə dair tələblər maddəsində (maddə 57) göstərilir ki, "*əlillərin və hərəkət imkanları məhdud digər şəxslərin tikinti obyektindən istifadəsi ilə bağlı zəruri infrastruktura malik olmalıdır (xüsusən də ümumi istifadə üçün nəzərdə tutulmuş tikinti obyektləri)*"[20].

---

[19]http://e-qanun.gov.az/framework/13556
[20]http://e-qanun.gov.az/code/22

Həmin Məcəllənin 70.2.3. maddəsində isə yaşayış binalarında "*əlillər üçün pandusların təşkil edilməsi*"[21] nəzərdə tutulur.
Məcəllənin qəbul olunmasına qədər hər hansı standartlar və qanunvericiliklə müəyyən edilən tələblər olmamışdır.
Cəzaçəkmə müəssisələrində hərəkət, görmə və s. imkanları məhdud olan məhkumlar üçün əlavə infrastrukturun nəzərdə tutulması üçün hüquqi əsaslar yaradan hər hansı normativ-hüquqi akt yoxdur. 2012-ci ildə qəbul olunmuş "Şəhərsalma və Tikinti Məcəlləsi" də belə müəssisələrdə əlilliyi olan şəxslər üçün hər hansı qaydalar müəyyən etmir.
Cəzaçəkmə müəssisələrində və ümumiyyətlə azadlıqdan məhrumetmə yerlərində əlilliyi olan şəxslər üçün infrastrukturun yaradılması və müəssərliyin təmin olunması üçün tikinti standartları da mövcud deyildir.

[21]http://e-qanun.gov.az/code/22

# II. MONİTORİNQ

## 2.1. Metodologiya

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan 10 müəssisədə monitorinqlər həyata keçirilmişdir.

Monitorinq bir neçə monitorinq alətinin tətbiqi yolu ilə reallaşdırılmışdır. İstifadə olunan əsas alətlər aşağıdakılar olmuşdur:

- Əvvəlcədən hazırlanmış sorğu vərəqi əsasında müşahidələrin aparılması və sorğu vərəqində qeyd edilən müvafiq suallar üzrə qeydiyyat;
- Həssas qruplara daxil olan məhkumlarla strukturlaşmamış intervülər (söhbətlər);
- Müəssisə rəhbərliyi və personalı ilə strukturlaşmamış intervülər;
- Cəzaçəkmə müəssisələrində həssas qrupa daxil olan məhkumlarla bağlı statistikanın əldə edilməsi və təhlili.

Monitorinq əsasında aşağıdakı istiqamətlər üzrə məlumatların əldə edilməsi nəzərdə tutulmuşdur:

- Müəssisənin hərəkət məhdudiyyəti olan Əlilliyi olan şəxslər üçün müəssərliyi, o cümlədən əlilliyi olan şəxslərin yataq, asudə vaxt, qidalanma yerlərinə gedib gəlmə imkanları;
- Hərəkət, görmə və eşitmə qabiliyyəti məhdud olan əlilliyi olan şəxslərin müvafiq vasitələrlə təchiz olunma vəziyyəti;
- Tibbə çıxış imkanları;
- Təhsil və reablitasiya imkanları;
- İbadət imkanları;
- Əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların kommunikasiya vasitələrindən istifadə imkanları;
- Ahil məhkumların pensiya təminatı vəziyyəti;
- Qadınların asudə vaxtı üçün imkanlar;
- Yeniyetmələrin təhsil və tərbiyəsinin təşkili;

Tikilməkdə olan penitensiar kompleksdə müəssərlik və zəruri infrastrukturun nəzərə alınıb alınmaması.

## 2.2. Sorğu vərəqinə daxil edilmiş suallar üzrə müşahidələr və onların nəticələri

Sorğu vərəqi üzrə müşahidələr və əvvəlcədən müəyyən edilən suallar əsasında qeydlərin aparılması monitorinq prosesində əsas alət olmuşdur.

Monitorinqin davam etdiyi aprel-may və iyun ayları ərzində Penitensiar Xidmətin 10 Cəzaçəkmə müəssisəsində müşahidələr aparılmşdır.

### 2.2.1. Müəssisənin hərəkət məhdudiyyəti olan əlilliyi olan şəxslər üçün müəssərliyi, o cümlədən əlilliyi olan şəxslərin yataq, asudə vaxt, qidalanma yerlərinə gedib gəlmə imkanları

Nəzərə alınmalıdır ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə daxil olan cəzaçəkmə müəssisələrinin xeyli hissəsi uzun illər əvvəl tikilmiş və ya o zaman mövcud olan islah-əmək müəssisələri üçün uyğunlaşdırılmışdır.

Bu baxımdan belə müəssisələrdə müasir standartları tətbiq etmək o qədər də asan deyildir. Binalar və qurğular fiziki və mənəvi baxımdan müasir penitensiar müəssisə üçün tələb olunan bütün göstəricilərə malik deyildir.

**"Azərbaycan ədliyyəsinin inkişafına dair 2009–2013-cü illər üçün Dövlət Proqramı"** nın vəzifələrindən biri "cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirlməsi"[22] dir.

Proqramın prioritet istiqamətlərindən biri də "Penitensiar Xidmətin fəaliyyətinin müasirləşdirilməsi və infrastrukturun yaxşılaşdırılması"[23]dır.

Dövlət Proqramının icrasından gözlənilən nəticələr içərisində "həbs olunmuş və məhkum edilmiş şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması" və "məhkumların ictimai-faydalı əməyə cəlb olunması"[24] kimi gözləntilər də vardır. Dövlət Proqramı 2013-cü ildə başa çatmışdır.

---

[22]http://archive.president.az/articles.php?item_id=20090209052021275&sec_id=136
[23]http://archive.president.az/articles.php?item_id=20090209052021275&sec_id=136
[24]http://archive.president.az/articles.php?item_id=20090209052021275&sec_id=136

Hazırda ölkənin müxtəlif yerlərində müasir Avropa Standartlarına tam cavab verən penitensiar komplekslər istifadəyə verilmiş və bu işlər davam etməkdədir.

Penitensiar müəssisələrdə bütün məhkumların və işçi heyətin normal həyat şəraitinin təmin olunması üçün xeyli işlər görülmüşdür.

Hazırda Penitensiar Xidmətin tabeliyində olan müəssisələr üçün ciddi sayıla biləcək problemlərdən biri də müəssisənin bütün infrastruktur sahələrinin (yataqxana, asudə vaxt yerləri, ibadət yerləri, yeməkxana, təhsil müəssisəsi, istehsalat sahəsi və s.) əlilliyi olan şəxslər üçün müəssər olması ilə bağlıdır. Əlbəttə müasir standartlara cavab verməyən köhnə tikililərdə tam müəssərliyin təmin olunması mümkün deyildir. Bununla belə elementar qurğuların quraşdırılması, təkərli kresloların sərbəst hərəkəti üçün sadə qurğuların (pandusların tikilməsi, qapı astanalarının uyğunlaşdırılması və s.) olduqca vacibdir.

Müşahidələrin aparıldığı dövrdə müəssisələrdə təkərli arabadan (hərəkət imkanları məhdud olan əlilliyi olan şəxslərin istifadə etdiyi) istifadə edən məhkum qeydə alınmamışdır. Müəssisələrin yalnız bir neçəsində minimal şərait müşahidə olunmuşdur.

Bir neçə cəzaçəkmə müəssisələrində hərəkət imkanları məhdud olan məhkumlar üçün xüsusi çarpayılar mövcuddur.

Bəzi cəzaçəkmə müəssisələrində (məsələn 11 və 17 saylı) hərəkət imkanı məhdud olan məhkumların istifadəsi üçün müəssər olan sanitar qovşaqlar mövcuddur, lakin digər müəssisələrdə sanitar qovşaqlar belə şəxslər üçün uyğunlaşdırılmamışdır.

Müşahidə aparılan cəzaçəkmə müəssisələrində görmə imkanları məhdud olan məhkumların hərəkəti üçün şərait yoxdur. Müəssisələrin əksəriyyətində görmə imkanları məhdud olan ( qeyd etmək lazımdır ki, bunlardan əksəriyyətində problem bir gözləbağlıdır, digər göz normal fəaliyyət göstərir ) məhkumlar olsa da, onlar yalnız digər məhkum yoldaşlarının köməyindən istifadə edə bilirlər.

### 2.2.2. Hərəkət, görmə və eşitmə qabiliyyəti məhdud olan əlilliyi olan şəxslərin müvafiq vasitələrlə təchiz olunma vəziyyəti

Müşahidələrin aparıldığı cəzaçəkmə müəssisələrində əlilliyi olan məhkumların (hərəkət, eşitmə, görmə və s.) müvafiq vasitələrlə təchiz olunması ilə bağlı məlumatlar əldə edilmişdir.

Müəyyən edilmişdir ki, məhkumların əksəriyyəti əlilliyi hələ azadlıqda olarkən əldə etmişdir və bu baxımdan artıq cəzaçəkmə müəssisəsinə gətirilərkən özlərində belə vasitələr var idi. Məsələn, eşitmə məhdudiyyəti olan məhkumlarda səsgücləndirən qulaqcıqlar, görmə imkanları zəif olan əlilliyi olan məhkumlarda eynəklər, hərəkət imkanı məhdud olan və aşağı ətraflarından birini itirmiş məhkumlarda protezlər bir qayda olaraq müəssisəyə daxil olarkən mövcud olur.

Cəzanın çəkildiyi dövrdə bu vasitələrin yenilənməsi Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən təmin edilir.

Müşahidələr zamanı müəyyən edildi ki, Bəzi müəsissələrdə isə *əlilliyi olan və* protez-*ortopediya* məmulatlardan istiafadə edən *məhkumlarin protezləri köhnəlib və dəyişdirlməsinə ehtiyac var. (15 saylı CÇM-də 3 nəfər, 4 saylı CÇM-də 1 nəfər, 10 saylı CÇM-də 3 nəfər, 2 saylı CÇM-də 5 nəfər* protez-*ortopediya* məmulatlardan istifadə edən *məhkum var, onlarda 3-nün dəyişidirlməsinə e*htiyac var, 17 saylı CÇm-də 3 nəfərin ehtiyacı var, 11 saylı CÇM-də 3 nəfər).

Penitensiar Xidmət bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında məsələ qaldırsa da nazirlik tərəfindən təminat ləngidilir. Ümumiyətlə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi və onun müvafiq qurumları məhkumlara yönələn tədbirlərdə (əlilliyin müəyyən edilməsi,yaşa və əlilliyə görə pensiya təyin edilməsi, vasitələrlə təminat və s.) bürokratiya və süründürməçiliyə yol verir.

Hərəkət məhdudiyyəti olan məhkumların minimal tələblərə cavab verən protezlərlə təminatı aktual problem olaraq qalmaqdadır.

### 2.2.3. Tibbə çıxış imkanları

Cəzaçəkmə müəssisələrində məhkumların tibbə çıxışı minimal Avropa standartlarına uyğundur. Avropa Penitensiar Qaydalarında göstərilir ki, "Hər bir penitensiar müəssisənin müvafiq ixtisasa, ümumi tibbi təcrübəyə malik ən azı bir həkimi olmalıdır"[25]. Bu baxımdan Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrinin hamısında tibbi hissə fəaliyyət göstərir. Bu hissələrdə stasionar və ambluator müalicə həyata keçirilir və tibbi heyətə bir neçə həkim və digər tibb personalı daxildir.

Penitensiar Xidmətin Müalicə müəssisəsi və bir ixtisaslaşmış tibb müəssisəsi vardır.

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisələrində tibbi-sanitar hissələr fəaliyyət göstərir. TSH-lərdə həkim-feldşer heyəti (3-5 nəfərdən ibarət) məhkumları gündəlik olaraq qəbul edir, ilkin müayinə və müalicəsi ilə məşğul olurlar. THS-nin demək olar ki, hamısı təmir edilib, minimum avadanlıqlarla təmin edilmişdir. Daha ciddi müayinə və müalicəyə ehtiyacı olan məhkumlar Müalicə müəsisəsinə göndərilirlər.

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisələrində tibbi-sanitar hissələrdə məhkumları həm stasionar, həm də ambulator müalicəsi üçün şərait vardır. Cəzaçəkmə müəssisələrinin TSH-də 12-15 çarpayılıq stasionar hissə məhkumların xidmətindədir. Eyni zamanda ambulator müalicə üçün hər gün onlarla məhkum müalicə üçün müraciət edir və ilkin yardım alır və müalicə olunurlar. İlkin müalicə və müalicə üçün tələb olunan ləvazimatlar və dərmanlar vardır.

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisələrində tibbi-sanitar hissələrin hamısında elektrokardioqramma (EKQ), qlükonomet, rentgen (diş, ağız boşluğu, ətrafların və s. rentgen çəkilişi üçün), vizoqraf var.

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisələrində stomatoloji kabinet fəaliyyət göstərir. Stomatoloji kabinetlərdə demək olar ki, müasir standartlara uyğun avadanlıqlarla- stamotolji kreslo, rentgen avadanlığı, strelizə avadanlığı və s. təmin edilmiş, lazımı dərman ləvazimatları vardır.

---

[25] Avropa Penitensiar Qaydaları. Mənbə:http://publiccommittee-az.org/wp-content/uploads/2016/04/AVROPA-PEN%C4%B0TENS%C4%B0AR-QAYDALARI.pdf

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisələrində dərman və tibbi lvazimatlar var. Dərmanlar müəyyən siayhı üzrə tərtib edilmiş dozalarda və sayda Ədliyyə Nazirliyinin müvafiq qurumları tərəfindən verilir. Aparılan müşahidələr zamanı dərmanların saxlanma şəraiti kifayət qədər uyğundur. Dərmanların saxlanma müddətinə və s. nəzarət edilir. Müşahidələr zamanı saxlanma müddəti keçmiş dərmanlar aşkarlanmadı**.** Lakin dərman adları məhdud saydadadır.
Həssas qruplara daxil olan məhkumlar, o cümlədən əlilliyi olan məhkumlar üçün minimal şərait yaradılmışdır. Bununla belə hərəkət məhdudiyyəti olan məhkumların daxil olması üçün tibb-sanitar hissələr uyğunlaşdırılmamışdır. Bir qayda olaraq tibbi-sanitar hissələr birmərtəbəli binalarda yerləşdiyi üçün xüsusi çətinlik hiss olunmasa da, müəssərliyin təmin olunması vacibdir. Penitensiar Xidmətin müalicə müəssisəsində də binalar və qurğular əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmamışdır. Lakin müəssisədə sanitar qovşaqların bir hissəsində minimal şərait yaradılmışdır.

### 2.2.4.Təhsil və reablitasiya imkanları

Avropa Penitensiar Qaydalarında göstərilir ki, "Hər bir penitensiar müəssisə bütün məhbuslara maksimal geniş və onların fərdi ehtiyaclarına cavab verən, məqsədlərinə uyğun olan təhsil proqramlarından istifadə etmək imkanları verməyə çalışmalıdır.
Daxili rejimə əsasən təhsilin statusu əməyin statusundan aşağı olmamalı və məhbuslar təhsil proqramlarında iştiraka görə maliyyə cəhətdən məhdudlaşdırılmamalıdırlar"[26].
Cəzaların İcrası Məcəlləsinin 100.1. maddəsinə əsasən "Peşəsi və ya ixtisası olmayan məhkumlar üçün cəzaçəkmə müəssisələrində *ilk peşə-ixtisas təhsil*i və ya peşə hazırlığı həyata keçirilir"[27].
Müşahidələr zamanı Cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən texniki-peşə məktəblərinə baxış keçirilmişdir. Fəaliyyət

[26]Avropa Penitensiar Qaydaları. Mənbə:http://publiccommittee-az.org/wp-content/uploads/2016/04/AVROPA-PEN%C4%B0TENS%C4%B0AR-QAYDALARI.pdf

[27]Cəzaların İcrası Məcəlləsi. Mənbə: http://e-qanun.gov.az/code/15

göstərən bütün texniki-peşə məktəblərində təhsil aparılsa da təhsilin səviyyəsi olduqca aşağıdır. Məktəblərin maddi-texniki bazası zəifdir, tədris vasitələri mənəvi və fiziki baxımdan aşınmışdır və müasir tələblərə cavab vermir. Müəllim heyəti tam komplekləşdirilməmişdir. Bu baxımdan təhsil formal xarakter daşıyır.

Bununla belə bəzi cəzaçəkmə müəssisələrində Penitensiar Xidmətin özü tərəfindən təşkil edilən qısamüddətli peşəyönümünün dəyişdirilməsi və ya yeni peşələrin öyrənilməsi üçün kurslar həyata keçirilir. Əsas kurslar kompüter kurslarıdır. Kurslara cəlb edilən məhkumlara əsas baza proqramları tədris olunur və sonda kursları həyata keçirən müəssisə tərəfindən sertifikatlar verilir. Kompyüter kurslarına cəlb edilən dinləyicilər arasında həssas qruplara daxil olan məhkumlar, o cümlədən qadın məhkumlar, əlilliyi olan məhkumlar da vardır.

Yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsində təhsil orta təhsil proqramına uyğun həyata keçirilir.

### 2.2.5. Cəzaçəkmə müəssisələrində bədən tərbiyəsi və idman

Cəzaçəkmə müəssisələrində idman zalları və açıq havada idman meydançaları (əsasən futbol və voleybol) mövcuddur. İdman zallarından növbəlilik prinsipi əsasında istifadə edilir. Penitensiar Xidmət bəzi idman növləri üzrə müəssisədaxili və müəssisələrarası idman yarışları təşkil edir.

Müəssisələrdə əlilliyi olan şəxslər, xüsusən də hərəkət imkanı məhdud olan məhkumlar üçün xüsusi idman qurğuları quraşdırılmamışdır. Belə məhkumlar idman qurğularından imkanları daxilində istifadə edirlər və əsasən stolüstü oyunlarda (şahmat, dama, nərd) fəal iştirak edirlər.

Penitensiar Xidmət ölkənin həyatında mühüm hadisələrə, bayramlara həsr olunmuş idman yarışları təşkil edirlər. Statusundan asılı olmayaraq marağı və bacarıqları olan bütün məhkumlar belə yarışlarda iştirak edir.

### 2.2.6. İbadət imkanları

Müşahidələrin aparıldığı cəzaçəkmə müəssisələrində dini ayinləri icra etmək üçün xüsusi yerlər nəzərdə tutulmuşdur. Müsəlman

olmayan və başqa ənənəvi dinlərə sitayiş edənlər üçün də müvafiq şərait yaradılmışdır. Əlilliyi olan dindarların ibadət etmək üçün problemləri yoxdur. Məscidlər adətən birmərtəbəli binalarda yerləşir və daxil olmaq üçün ciddi baryerlər yoxdur.

### 2.2.7. Həssas qrupa daxil olan məhkumların pensiya təminatı, əlillik dərəcəsinin alınması ilə bağlı vəziyyət

Azərbaycan Respublikasının Konstitusiyasının 38.3 maddəsində göstərilir ki, "Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir"[28].

Cəzaçəkmə müəssisələrində yaşa, əlilliyə və s. səbəblərə görə pensiya hüququ yaranarkən Penitensiar müəsissənin rəhbəri bu barədə sənədləri müvafiq icra hakimiyyəti orqanına göndərir.

Qeyd edilməlidir ki, əvvəlki illərdən fərqli olaraq hazırda məhkumların əlilliyə, yaşa və s. səbəblərə görə pensiya təyinatında müsbət irəlləyişlər qeydə alınmışdır. 2008-2012-ci illərdə müxtəlif səbəblərdən, o cümlədən məhkumların sənədlərinin qaydasında olmaması (məsələn, şəxsiyyət vəsiqəsinin olmaması) səbəbindən pensiya təyin olunmasında ciddi problemlər mövcud idi.

Bu fəaliyyət çərçivəsində həyata keçirilən müşahidələr zamanı cəzaçəkmə müəssisələrinin bir çoxunda (məsələn, 13,14, 15 saylı) pensiya yaşına çatmış, lakin müəyyən səbəblərdən pensiya ala bilməyən məhkumlar qeydə alınmamışdır.

Müşahidələr zamanı Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində 1 nəfər, 10 saylı cəzaçəkmə müəssisəsində 2 nəfər, 2 saylı cəzaçəkmə müəssisəsində 13 nəfər pensiya yaşına çatmış, lakin müəyyən səbəblərdən pensiya ala bilməyən məhkum qeydə alınmışdır.

Müşahidə aparılan cəzaçəkmə müəssisələrinin bəzilərində (1 saylı cəzaçəkmə müəssisəsində, 13 saylı cəzaçəkmə müəssisəsində 2 nəfər, 15 saylı cəzaçəkmə müəssisəsində 10 nəfər, 16 saylı cəzaçəkmə müəssisəsində 2 nəfər, 2 saylı

[28] Azərbaycan Respublikasının Konstitusiyası. Mənbə: http://meclis.gov.az/?/az/topcontent/2

cəzaçəkmə müəssisəsində 2 nəfər, 17 saylı cəzaçəkmə müəssisəsində 6 nəfər, 11 saylı cəzaçəkmə müəssisəsində 6 nəfər (onlardan 3 nəfərin sənədləri hazırlanır)) da belə hallar qeydə alınmışdır. Bəzi müəsissələrdə (13 saylı cəzaçəkmə müəssisəsində 1 nəfər )isə əlillik dərəcəsinin dəyişdirmək istəyən məhkumlar da var. Hətta əlillik dəsəcəsi olan lakin pensiya ala bilməyən məhkumlar da qeydə alınmışdır (13 saylı cəzaçəkmə müəssisəsində 1 nəfər, 15 saylı cəzaçəkmə müəssisəsində 3 nəfər, 4 saylı cəzaçəkmə müəssisəsində 4 nəfər)

Məhkumlara pensiyaların təyin olunmasında ortaya çıxan problemlər əsasən sənədlərlə bağlıdır. Eyni zamanda bəzi rayonların Tibbi-sosial ekspert komissiyalarında olan bürokratiya da pensiya təyinatında gecikmələrə səbəb olur. Əlilliyin təyin olunmasında prosedurlar bəzən illərlə uzanır. Bakı şəhər Qaradağ rayonu, Xəzər rayonunda bu komissiyaların süründürməçiliyi nəticəsində əlilliyin təyin olunması uzanır. Məhkumların bəzisində şəxsiyyət vəsiqəsinin olmaması da pensiya təyinatında problemlərin yaranmasına gətirir.

### 2.2.8.Həssas qruplara daxil olan məhkumların digər problemləri (əməyə çıxış, digər sosial problemlər) üzrə müşahidələr

Avropa Penitensiar Qaydalarına görə "Həbs yerlərində əməyə daxili rejimin müsbət elementi kimi baxılmalı və ondan heç vaxt cəza kimi istifadə edilməməlidir"[29].

Qaydalar görə həmçinin, penitensiar müəssisənin müdiriyyəti faydalı əmək üçün kifayət qədər şərait yaratmağa çalışmalıdır. Məhkumlara təklif olunan işin xarakteri onlara azadlığa çıxdıqdan sonra yaşamaq üçün qazanc əldə etmək qabiliyyətini saxlamağa və yaxşılaşdırmağa imkan yaratmalıdır. Məhkumlara iş təqdim edilərkən cinsi əlamətə görə ayrı-seçkiliyə yol veriləbilməz. Və s.

Cəzalrın İcrası Məcəlləsində göstərilir ki,"Hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır.

---

[29]Avropa Penitensiar Qaydaları. Mənbə:http://publiccommittee-az.org/wp-content/uploads/2016/04/AVROPA-PEN%C4%B0TENS%C4%B0AR-QAYDALARI.pdf

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb etməlidirlər"[30].

Əməyin stimullaşdırılması üçün məhkumların əmək haqqından əlavə tutmalar (yemək, geyim, yaşayış xərcləri) CİM-dən çıxarılmışdır.

Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində məhkumların əməyə çıxışında problemlər mövcuddur. Belə ki, sifarişlərin az olması səbəbindən cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların yalnız az bir hissəsi məşğuldur. Bu baxımdan həssas qruplara daxil olan məhkumlar üçün əməyə çıxış daha da problemlidir.

Layihə çərçivəsində həyata keçirdiyimiz müşahidələr zamanı həssas qruplara daxil olan məhkumların əməyə çıxışı da diqqətdə saxlanılmış və zəruri məlumatlar toplanmışdır.

Nisbətən yaxşı vəziyyət qadın məhkumların saxlandığı cəzaçəkmə müəssisəsindədir.

Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində (qadın məhkumların cəza çəkdiyi müəsissə) qadın məhkumların əməklə məşğul olmaq imkanları var. Müəssisədə xalça sexi, tikiş sexi və s. faəliyyət göstərir. Müəssisədə olan məhkumalrın böyük hissəsi bu istehsal sahələrində çalışırlar.

Əlilliyi olan məhkumların məşğulluq göstəriciləri aşağı səviyyədədir. Cəzaların İcrası Məcəlləsinə görə "**a**ltmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlara, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlara, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlara könüllülük əsasında işləməyə icazə verilir. Yetkinlik yaşına çatmayan məhkumlar əmək qanunvericiliyinə uyğun işə cəlb edilirlər". Bu baxımdan əlilliyi olan şəxslər yalnız özləri istədikdə və onların əmək fəaliyyəti üçün müvafiq şərait olduqda əməyə cəlb edilirlər.

Lakin cəzaçəkmə müəssisəsində əlilliyi olan məhkumalar könüllü olaraq işləmək istəyir və bəzi müəsissələrdə bunu etmək

---

[30]http://e-qanun.gov.az/code/15: Cəzaların İcrası Məcəlləsi. Maddə 95.1.

mümkündür. Məsələn, 4 saylı cəzaçəkmə müəssisəsində (qadın məhkumların cəza çəkdiyi müəssisə) əlilliyi olan qadınlar əməklə məşğul olmaq imkanları var. 15 saylı cəzaçəkmə müəssisəsində əlilliyi olan məhkumlar könüllü olaraq müəssisənin ərazisində müxtəlif sahələr (istehsal sahələrində, ərazinin təmizlənməsi, təmir-tikinti sahələri, abadlıq işləri, istixanalar, fərdi əmək sahələri, xidmət sahələri (mətbəx, hamam, çamaşırxana, bərbər və s.)) üzrə əməklə məşğul olurlar. Bəziləri də qeyri-daimi məşğul olurlar. Onlara müvafiq iş verildikdə onu yerinə yetirir və gördüyü işin müqabilində qazanc əldə edirlər.

**2.2.9.Xarici aləmlə əlaqə**

Avropa Penitensiar Qaydalarına görə “Məhkumlara kifayət qədər tez-tez öz ailələri, digər şəxslər və kənar təşkilatların nümayəndələri ilə poçt, telefon və yaxud digər əlaqə vasitələrinin köməyi ilə əlaqə saxlamasına, habelə göstərilən şəxslərin məhbuslara baş çəkməsinə icazə verilir”[31].

Cəzaların İcrası Məcəlləsində məhkumların xarici aləmlə əlaqələrinin olmasına yönələn bir sıra müddəalar vardır. Məhkumların yaxınları və qohumları ilə telefon danışıqları,məhkumların gəzintisi, məhkumların ədəbiyyat və yazı ləvazimatı əldə etməsi və saxlaması, məhkumların müşayətsiz gediş-gəlişi, məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yaşaması, cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda qısa müddətli səfərlər kimi xarici aləmlə əlaqə üçün prosedur və qaydalar mövcuddur və rejimə uyğun tətbiq edilir.

Həssas qruplara daxil olan qadınlar və həddi-büluğa çatmayan şəxslər üçün qanunvericilik əlavə tədbirlər nəzərdə tutur. Əlilliyi olan məhkumlar da yüngül rejimli cəzaçəkmə müəssisələrində olarkən xarici aləmlə əlaqədə problemləri olmur.

Müşahidə aparılan bütün cəzaçəkmə müəssisəsində həm qısamüddətli, həm də uzunmüddətli görüşlər üçün şərait yaradılmışdır. Eyni zamanda bir neçə məhkum öz yaxınları ilə görüşə bilərlər. Uzunmüddətli görüşlərdə eyni zamanda 5-8

[31]Avropa Penitensiar Qaydaları. Mənbə:http://publiccommittee-az.org/wp-content/uploads/2016/04/AVROPA-PEN%C4%B0TENS%C4%B0AR-QAYDALARI.pdf

məhkum öz ailə üzvləri, qısamüddətli görüşlərdə isə eyni zamanda 15-20 nəfər məhkum öz yaxınları ilə görüşə bilərlər. Bəzi müəsissələrdə görüş yerləri təmir edilmiş, görüşdə olan məhkumların görüşə gələn yaxınları üçün normal şərait yaradılmışdır, sanitar qovşaq, mətbəx və s. vardır, televiziya, soyuducu ilə təmin edilmişdir. Lakin bəzi müəsissələrdə uzunmüddətli görüş yerləri müasir standartlara cavab vermir və təmirə ehtiyacı var.

Bütün müəsissələrdə telefon danışıqları üçün şərait var. Bir neçə telefon xətti fəaliyyət göstərir və danışıq kabinələri quraşdırılmışdır.

**2.2.10.Əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların kommunikasiya vasitələrindən istifadə imkanları**

Əcnəbi və vətəndaşlığı olmayan və mənşə ölkəsi Azərbaycan olmayan məhkumlar üçün xarici aləmlə əlaqədə bir sıra obyektiv çətinliklər mövcuddur. Onların qohumları ilə görüşləri çətindir. Başqa dövlətdən gəlmək və məhkumla görüşmək maliyyə imkanlarına bağlıdır və bu baxımdan bir çox əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların belə təmasları az olur. Onların vətənlərinə zəng etmək imkanı vardır və vətəndaşlığı olan digər məhkumlarla eyni hüquqlara malikdirlər. Belə məhkumların yeni texnologiyalardan istifadə etməklə (skype və s.) yaxınları ilə əlaqə qurması üçün qanunvericiliyə müvafiq dəyişikliyin edilməsinə ehtiyac vardır.

## III HƏSSAS QRUPLARA DAXİL OLAN MƏHKUMLA-RA HÜQUQİ YARDIMLARIN GÖSTƏRİLMƏSİ

### 3.1. Məhkumların hüquqi və psixoloji yardım almaq hüququ

Avropa Penitensiar Qaydalarına görə " Bütün məhkumlar hüquqi yardım almaq hüququna malikdirlər, müdiriyyət öz növbəsində belə yardımdan səmərəli istifadə üçün zəruri şərait yaratmalıdır.

- Məhkumlar istənilən hüquqi məsələ ilə əlaqədar öz seçim və hesablarına vəkillə məsləhətləşə bilərlər.
- Pulsuz hüquqi xidmət sistemi mövcud olduqda, müdiriyyət bu barədə məhbusları məlumatlandırmalıdır.
- Məhkumların öz vəkilləri ilə məsləhətləşməsi və istənilən ünsiyyəti, onların yazışması da daxil olmaqla məxfi xarakter daşıyır.
- Müstəsna hallarda məhkəmə penitensiar müəssisədə ağır cinayətin və ya təhlükəsizliyə qarşı ciddi təhdidin qarşısının alınması məqsədilə belə məxfiliyə məhdudiyyət qoya bilər.
- Məhkumların onlar barədə məhkəmə-istintaq hərəkətlərinə dair sənədlərlə tanış olmaq, yaxud belə sənədləri özlərində saxlamaq imkanı olmalıdır.[32]

Cəzaların İcrası Məcəlləsinə 10-cu maddəsində göstərilir ki, məhkmların hüquqi və psixoloji yardım almaq hüququ vardır. Məcəllənin 81.7.-ci maddəsinə görə "Hüquqi yardım almaq üçün məhkumların özlərinin, yaxın qohumlarının və ya onların qanuni nümayəndələrinin ərizəsinə əsasən məhkumlara vəkillərlə, habelə belə yardımı göstərmək hüququna malik olan digər şəxslərlə görüş verilir"[33].

### 3.2.Həssas qruplara daxil olan məhkumlara hüquqi yardımların göstərilməsi

Həyata keçirilən layihə çərçivəsində cəzaçəkmə müəssisələrində cəza çəkən və həssas qruplara daxil olan məhkumlara hüquqi yardım proqramı həyata keçirilmişdir.Cəza Çəkmə Müəssisələrinə həyata keçirilən başçəkmələr zamanı (vəziyyətin

---

[3232]Avropa Penitensiar Qaydaları. Mənbə:http://publiccommittee-az.org/wp-content/uploads/2016/04/AVROPA-PEN%C4%B0TENS%C4%B0AR-QAYDALARI.pdf

[33]Cəzaların İcrası Məcəlləsi. Mənbə: http://e-qanun.gov.az/code/15

və şəraitin öyrənilməsi, intervülər, müşahidlərlə əlaqədar) müraciət edən məhkumlara (Əlilliyi olan, qadınlar, tərbiyə müəssəsində saxlanılan yeniyetmələr, əcnəbi və ya vətəndaşlığı olmayan məhkumlar, xəstə ahıllar) bilavasitə yardımlar göstərilmişdir. Bu yardımlar əasaən aşağıdakı istiqamətlər üzrə olmuşdur.

- Əlilliyi olan məhkumlara əlillik dərəcəsinin alınması ilə bağlı;
- Əlilliyi olan şəxslərə müalicə və protezləşmə məsələləri ilə bağlı;
- Əlilliyi olan şəxslərə xüsusi avadanlıqla (təkərli araba, çəlik, eynək, eşitmə aparatı və s.) təchiz olunmaları ilə bağlı;
- Qadın məhkumlara əsas ehtiyaclar üzrə (vaxtından əvvəl şərti azad edilmə, övladlarının sənədlərinin hazırlanması, mülikiyyət məsələləri və s.)
- Ahıllara pensiya təminatı və müalicə məsələləri;
- Digər.

Hüquqi yardımlar göstərilərkən həssas qruplara daxil olan məhkumların əksəriyyəti cəzaçəkmə müəssisəsindən kənarda olan problemlərlə bağlı (ailə üzvlərinin sosial problemləri, ünvanı dövlət sosial yardımı almaqla bağlı, əmlak məsələləri, ailə üzvünün işsiz olması və s.) müraciətlər edir.

Hüquqi yardım üçün müraciət edən şəxslər arasında vaxtından əvvəl şərti azad olunmaq, daha yüngül rejimli cəzaçəkmə müəssisəsinə keçirilmək kimi müraciətlər, həmçinin əfv olunmaq üçün müraciət etmək məsələləri də vardır.

**TÖVSİYƏLƏR**

BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqlarının Müdafiəsinə dair Konvensiyasının 20-ci maddəsi Əlilliyi olan şəxslərin fərdi hərəkət imkanın təmin olunması üçün iştirakçı dövlət üzərində öhdəlik müəyyən edir.

Azadlıqdan məhrumetmə yerlərində belə şəraitin olmaması və ya tam olmaması konvensiyada müəyyən edilən öhdəliyin pozulmasıdır. Azərbaycan Respublikasının "Şəhərsalma və Tikinti Məcəlləsi" nə bununla bağlı əlavələr edilməlidir. Eyni zamanda azadlıqdan məhrum etmə yerlərində əlilliyi olan şəxslər üçün müəssərliyin təmin olunması üçün xüsusi standartlar müəyyən edilməlidir;

Yeni tikilən və tikilməkdə olan azadlıqdan məhrumetmə yerləri, o cümlədən penitensiar komplekslər, cəza çəkmə müəssisələri, həbsxana və s. müvafiq yerlərdə müvafiq infrastruktur yaradılmalıdır;

Əvvəllər istismara verilən azadlıqdan məhrumetmə yerlərində əlilliyi olan şəxslərin, xüsusən hərəkət məhdudiyyəti olan məhkumların hərəkət imkanlarının yaxşılaşdırılması üçün əlavə infrastrukturun (standarta uyğun panduslar, təkərli arabanın sərbəst keçəcəyi qapılar və s.) yaradılması və heç olmazsa minimal tələbin ödənilməsi zəruridir;

Hərəkət imkanları məhdud olan məhkumların müasir tələblərə cavab verən protezlərlə təmin olunması üçün müvafiq tədbirlər görülməli, aidiyyatı qurumların, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin cavabdehliyi artırılmalıdır;

Pensiya yaşına çatmış və ya əlillik səbəbindən pensiyaya çıxmalı olan məhkumlarla bağlı qərarların qəbulunda və prosedurlarda bürokratik əngəllər aradan qaldırılmalıdır;

Cəza Çəkmə Müəssisələrində həssas qrupa daxil olan məhkumların pensiya təminatı, əlillik dərəcəsinin alınması ilə bağlı problemlərin aradan qaldırlması üçün tədbirlər görülməlidir. Bu istiqamətdə görüləsi vacib işlər sırasında bəzi məhkumların sənədləri (şəxsiyyət vəsiqəsi və s.), Əmək və Əhlainin Sosial Müdafiəsi Nazirliyinin Həkim Tibbi-Ekspert

Komissiyası tərəfindən yaradılan problemlər aradan qaldırlmalıdır;

Cəza Çəkmə Müəssisələrində məhkumalrın, o cümlədən həssas qrupa daxil olan məhkumların məşğulluq problemlərinin aradan qalldırılması üçün əlavə tədbirlər görülməlidir.

# ƏLAVƏLƏR

**Əlavə 1. Müşahidə-qeyd vərəqi**

Avrasiya Əməkdaşlıq Fondu tərəfindən reallaşdırılan və Niderland Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşən qrant proqramı çərçivəsində Avrasiya Əməkdaşlıq Fondu və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən "**Cəza Çəkmə Müəssisələrdə cəza çəkən və həssas qrupa daxil olan məhkumlarının sosial problemlərinin həllinə yönələn ictimai vəkillik**" Layihəsi çərçivəsində Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəza Çəkmə Müəssisələrində aparılan müşahidələrə dair

**QEYD VƏRƏQİ**

**Müəssisə_________**

**____ ____________2016**

**İ. Fəaliyyətdə olan və tikilməkdə olan Cəza Çəkmə Müəssələrinin əlilliyi olan şəxslər üçün müəssərliyinin müşahidəsi üzrə.**

**Sərbəst hərəkət imkanı**

□Müəssisə ərazizində təkəli kreslonun (arabanın) (Əlilliyi olan şəxslərin istifadə etdikləri) hərəkəti üçün şərait vardırmı? Ərazidə panduslar vardırmı? Panduslar standartlara uyğundurmu?

□Müəssisə ərazisindəki yaşayış binalarında,cəza kameralarında, infrastruktur sahələrində (yeməkxana, kitabxana, klub, ibadət otaqları və s.) təkərli kresloların hərəkəti üçün standarta uyğun panduslar, koridorlar, qapılar vardırmı?

□Hərəkət imkanı məhdud olan məhkumların istifadəsi üçün müəssər olan sanitar qovşaqlar təşkil edilmişdirmi?

□Görmə imkanları məhdud olan məhkumların hərəkəti üçün şərait vardırmı?

□ Digər məhdudiyyətləri olan Əlilliyi olan Məhkumlar üçün minimal şərait təmin olunmuşdurmu?

**Vasitələrlə təchizat**
□Hərəkət məhdudiyyəti olan məhkumlar üçün təkərli arabalar, qoltuq ağacları və s. hərəkəti asanlaşdıran vasitələrlə təchizat.

□Görmə qabiliyyəti məhdud olan əlilliyi olan məhkumlar üçün hərəkət etmək və digər texniki vasitələrlə təchizat.
□Eşitmə qabiliyyəti məhdud olan Əlilliyi olan məhkumlar üçün texniki vasitələr (o cümlədən eşitmə qabiliyyətini artıran).

□Digər zəruri vasitələrlə təchizat.

□*Əlilliyi olan məhkumlar* protez-*ortopediya* məmulatları və digər reablitasiya *vasitələri* ilə təmin olunması.

**Tibbə çıxış**
□Həssas qruplara daxil olan məhkumların (Əlilliyi olan, ahıl, qadın, əcnəbi və ya vətəndaşlığı olmayan məhkumlar) tibbə çıxış imkanları.

□Müalicə imkanları, o cümlədən stasionar və ambulator müalicə imkanları.

□Diaqnostika avadanlıqları.

□Stomatoloji avadanlıqlarla təchizat.
□Dərman və digər tibbi ləvazımatlarla təchizat.

**İİ. Həssas qrupa daxil olan məhkumların pensiya təminatı, əlillik dərəcəsinin alınması ilə bağlı vəziyyət üzrə müşahidə və müsahibələr üzrə.**
□Pensiya yaşına çatmış, lakin müəyyən səbəblərdən pensiya ala bilməyən məhkumlar vardırmı (sayı, nisbəti)

□Əlilliyi olub əlillik dərəcəsi ala bilməyən məhkumlar vardırmı.

□Əsas problemlər nə ilə bağlıdır (bürokratiya, korrupsiya, sənədlərlə bağlı problemlər və s.)

**İİİ. Həssas qruplara daxil olan məhkumların digər problemləri (əməyə çıxış, digər sosial problemlər) üzrə müşahidələr.**

□Qadın məhkumların əməyə çıxış göstəriciləri

□Əlilliyi olan məhkumların məşğulluq göstəriciləri

□Xarici aləmlə əlaqə

□Təhsil və resosializasiya proqramlarında iştirak